*Nəsr guşəsi*



Alberto MORAVİA
*(İtaliya)*

*Yəhudi əsilli İtaliya yazıçısı Alberto Moravia (1907-1990) ilk ədəbi uğuruna 1929-cu ildə çapdan çıxan «Biveclər» romanıyla imza atıb. Lakin tezliklə İtaliyada hakimiyyətə yiyələnən faşistlərin romana münasibəti neqativ olur və mürtəce hakimiyyət orqanlarının təqibini hiss edən yazıçı ölkəni tərk etmək məcburiyyətində qalır. Məcburi səyahət uzun çəkir – 1933-cü ildən 1943-cü ilə qədər. Moravia özü sonralar bu barədə yazırdı: «Bu on il həyatımın ən pis illəridir; mən o illəri heç zaman həyəcansız xatırlaya bilmirəm». Gah Yunanıstanda, gah Çində, gah ABŞ-da, gah Meksikada məskunlaşan yazıçı 1943-cü ilin sentyabrında müttəfiq qoşunların çıxarılmasından sonra arvadıyla bir müddət İtaliyanın Fondi şəhərində, Çoçarada gizlənməli olur. Orada keçirdiyi ağır həyatı Moravia 1957-ci ildə çapdan çıxan «Çoçara» romanında yüksək bədii çalarlarla təsvir edib.*

*Alberto Moravia bir çox məşhur əsərlərin, o cümlədən «Həyat oyundur», «İntervü», «Diqqət», «Özgə həyat» romanlarının, həmçinin bütün dünyada böyük maraqla oxunan "Roma hekayələri" silsiləsinin müəllifi kimi tanınır.*

## Mario
*(hekayə)*

Məsələ bu cür oldu. Səhər mən yuxudan oyananda Filomena hələ yatırdı. Alətləri götürüb barmaqlarımın ucunda evdən çıxdım, via Qramşidəki Monte Parioliyə yollandım. Orada vanna otağının sobasını düzəltməliydim. İş nə qədər vaxt aparardı? Uzaqbaşı iki saat: köhnə borunu çıxarıb, yerinə təzəsini taxmaq lazım gəlmişdi. İşi qurtarıb əvvəl avtobusla, sonra tramvayla geri qayıtdım, yəni via del Koronariyə – evim də buradadır, emalatxanam da. İndi gəlin hesablayaq: deməli, iki saat Monte Pariolidə işə sərf olundu, bir saat da yola – yarım saat o başa, yarım saat geriyə. Hamısı eləsin üç saat. Nə olan şeydir üç saat? Sizə de-



yim: bu həm çoxdur, həm də az. Hər şey şəraitdən asılıdır. Qurğuşun borunu dəyişməyə mənim iki saat vaxtım getmişdi, başqaları isə bu müddət ərzində...

Qoy hamısını ardıcıllıqla danışım. Deməli, via del Koronaridə tramvaydan düşüb, səkiyə təzəcə çıxmışdım ki, arxadan kiminsə səslədiyini eşitdim. Dönüb baxanda gördüm, üzbəüz evdə kirayə otaq verən Fede qarıdır. Yazığın ayaqları podaqradan elə şişmişdi, elə bilərdin fil ayağıdır.

- Bu gün sirokko[1] yaman güclüdür ha, - Fede qarı nəfəsi təntiyə-təntiyə dedi. - Evə gedirsən? Səbəti aparmağa kömək eləməzsən?

Cavab verdim ki, böyük həvəslə. Alətləri yığdığım çantanı o biri çiynimə aşırıb, səbəti götürdüm. Yanaşı gedirdik, arvad ayaqlarını güclə sürüyürdü.

- Bəs Filomena hardadır? - gedə-gedə birdən soruşur.
- Harda olmalıdı ki? - deyirəm. - Evdə.
- Deməli, evdədir, - arvad başını aşağı salıb köks ötürdü. - Aydındır...
- Nə aydındır ki? - mən elə-belə, danışmaq xatirinə soruşdum.
- Aydındır, - deyir, - aydındır... Hayıf səndən, ay bədbəxt!

Arvadın tonu nəsə mənə şübhəli göründü. Bir qədər ara verib təzədən soruşdum:

- Bədbəxt niyə oluram? Nəyə görə bədbəxt?
- Ona görə ki, bədbəxtsən, niyəsi budur, - qoca kaftar ətrafa göz gəzdirib nəyəsə eyham vurur. - Sənin halına acıyıram.
- Bunu necə başa düşək?
- Belə başa düş ki, indi zəmanə dəyişib, qabaqkı kimi deyil... Mən görən vaxtların gəlinləri bu cür olmurdu.
- Nə cür?
- Bizim vaxtımızda kişi arvadı evdə tək qoyub hara istəsən, arxayınca gedə bilirdi. Necə qoyub gedirdisə, gəlib elə də görürdü. İndi isə...
- İndi isə nə?
- İndi o cür deyil... Yaxşı, daha bəsdir... Səbəti bəri ver görüm. Sağ ol. Bu gözəl səhərin bütün ləzzəti qaçmadımı?!
- Yox, verən deyiləm, - səbəti özümə tərəf dartıram. - Hamısını izah edəcəksiniz, sonra... Axı Filomenanın bura nə dəxli? Oxu atıb, yayı gizlətməyin!
- Mən heç nə bilmirəm, - deyir, - amma xəbərdar etməyin ziyanı yoxdur.
- Axı bir mənə deyin görüm Filomena neyləyib, nə oyun çıxardıb?! - qışqırıram.
- Get onu Adalcizadan soruş!

Fede qarı səbəti dartıb əlimdən aldı, öz uzun çiyinliyində xırda addımlarla elə becid getdi, elə sürətlə aralandı ki, məəttəl qaldım; bunu heç gözləməzdim.

Bir az düşünüb geri döndüm: qərarım belə oldu ki, bu dəqiqə emalatxanaya getməyə dəyməz, qayıdıb Adalcizanı tapmaq lazımdır. Xoşbəxtlikdən Adalciza da via del Koronaridə yaşayır. Filomenaya rast gələnəcən biz onunla adaxlıydıq. Adalciza evdə qız qaldı və indi mən ən çox ondan şübhələnirdim, fikirləşirdim ki, Filomenanın adına söz çıxaran, barəsində bu dedi-qoduları düzüb-

[1] Cənubi Avropada əsən isti, quru külək **(tərc.)**

qoşan elə odur. Beşinci mərtəbəyə qalxıb qapını bərk-bərk yumruqlamağa başladım, elə aramsız döyürdüm ki, qapı qəfildən açılanda yumruğum az qala qızın sifətinə dəyəcəkdi. Xalatının qollarını çırmalamışdı, əlində döşəməsilən vardı.

- Sənə nə lazımdı, Cino? - saymazyana soruşdu.

Adalciza orta boylu, suyuşirin qızdır. Yeganə qüsuru başının bir qədər yekəliyindədir, həm də çənəsi qabağa çıxıb. Çənəsinin ucbatından qıraq-bucaqda adına «Şıqqıldaq» deyirdilər. Əlbəttə ki, bunu üzünə demək olmaz. Mənsə hirsimdən elə ayamasını dilə gətirdim:

- Şıqqıldaq, camaata sən yaymısan ki, guya mən emalatxanada olanda Filomena evdə nə bilim nə hoqqalar çıxarır?

- Bilirsən nə var?! - qız mənə dəli kimi baxıb kükrədi. - Əl çək yaxamdan. Sən öz Filomenanı istədin, onu da aldın.

İrəli yeriyib qolundan yapışdım, amma tez də buraxdım, çünki bu vaxt qız mənə nə cürsə mehriban nəzərlərlə baxdı.

- Deməli, bunu sən uydurmusan?

- Yox, mən yox... Mənə deyiblər, mən də demişəm. Nə cür eşitmişəmsə, o cür də çatdırmışam.

- Bəs sənə kim deyib? Kimdən eşitmisən?

- Canninadan.

Daha dinmirəm; başqa heç nə soruşmadan geri dönürəm ki, çıxıb gedəm. Amma Adalciza qolumdan yapışıb təhdidlə deyir:

- Bir də mənə Şıqqıldaq dediyini eşitsəm, onda özündən küs!

Qolumu ondan zorla qoparıb pilləkənlə aşağı cumuram, cavabını beş-üç pillə düşəndən sonra altdan-yuxarı verirəm:

- Nolub ki, bəyəm çənəndə daha şıqqıldaq yoxdur?

Adalciza məhəccərdən aşağı əyilib dalımca qışqırır:

- Sən öz dərdini çək: çənədə şıqqıldaq olması başda buynuz olmasından yaxşıdır!

Qanım it qanına dönmədimi?!

Filomenanın mənə xəyanət etməsi, sadəcə, inanılmaz idi: evli olduğumuz üç ilin ərzində ondan mehribanlıq və nəvazişdən başqa heç nə görməmişəm. Amma gör qısqanclıq necə köpəyoğlu şeydir: Fede qarı və Adalciza ilə söhbətdən sonra birdən-birə gözümə xəyanətin dəlil-sübutu kimi görsənən də məhz bu nəvaziş məsələsi oldu.

Cannina yaxınlıqda, qonşuluqdakı barda kassir işləyir; elə bar da bizim via del Koronaridədir. Qız sarışındır; dümdüz hamar saçları var. Gözləri o qədər mavidir ki, az qala çinidən seçilmir. Sakit, həlim, ağlı başında olan dərrakəli qızdır. Kassaya yaxınlaşıb pıçıltıyla soruşuram:

- De görüm bunu sən uydurmusan ki, guya mən evdə olmayanda Filomena qonaq qəbul eləyir?

Həmin vaxt o, müştəriyə xidmət göstərirdi. Tələsənə oxşamırdı; barmağını kassanın klavişinə toxundurub əvvəl çek vurdu, sonra sifarişi astadan təkrarladı: «İki fincan qəhvə». Yalnız bundan sonra üzünü mənə tutub soruşur:

- Cino, sən nə deyirdin?



Sualımı təkrar edirəm. Pulun qalığını müştəriyə qaytarandan sonra qız mənə nə cavab versə yaxşıdır:

- Qulaq as, Cino, yəni mən doğrudanmı ən yaxın rəfiqəm haqqında belə şeylər uydura bilərəm?

- Onda belə çıxır ki, Adalciza yuxu görüb?

- Yox, - qız qamətini düzəltdi, - yuxu görməyib... Amma bu sözü mən özümdən çıxartmamışam; mən yalnız deyiləni demişəm, sadəcə, ağızdan eşitdiyimi təkrar eləmişəm!

- Hə, əcəb rəfiqəsən! Nə deyəsən, daha sənə sözüm yoxdur, - özümü saxlaya bilmədim.

- Mən axı demişdim ki, buna inanmıram... Demişdim... Əlbəttə, Adalciza burasını sənə çatdırmayıb.

- Yaxşı, bəs sənə kim deyib? De görüm, sən kimdən eşitmisən?

- Vinçensinadan... Vinçensina bunu mənə xəbər vermək üçün birbaşa camaşırxanadan durub gəlmişdi...

Mən sağollaşmadan dönüb çıxdım, birbaşa camaşırxanaya yollandım.

Vinçensinanı hələ küçədəykən görmüşdüm: ütüdən ikiəlli yapışıb, masanın böyründə paltar ütüləyirdi. Pişik kimi hiyləgər sifətli, nərmənazik, qarabuğdayı qızdır, özü də yamanca qıvraqdır. Məndən xoşu gəldiyini çoxdan bilirəm, elə indi də barmağımla yüngülcə işarə verən kimi ütünü bir kənara qoyub sevincək bayıra çıxır.

- Cino, səni görmək bilsən necə xoşdur!

- Ay ifritə! - qızın üstünə çəmkirirəm. - Sənsən aləmə car çəkən ki, guya mən emalatxanada olanda Filomena evə kişi gətirir?

Görünür, onun könlündəki ayrı şey idi, bu söhbəti gözləmirdi; əlini önlüyünün cibinə soxub, yerində fırlana-fırlana məzəli tərzdə soruşur:

- Nədi, xoşuna gəlmir?

- Cavab ver! - sifətimi bozardıram. - Sən salmısan bunu camaatın ağzına? Sənin işindir?

- Bu nə yaman qısqanc imiş! - çiyinlərini çəkib deyir. - Burda nə var ki, Cino? Yəni qadın öz dostuyla beş-üç dəqiqə danışa bilməz?

- Deməli, bu, sənin işindir! Hamısı sənin işindir!

Bu gürzə ilan cavabında mənə nə desə yaxşıdır:

- Qulaq as, Cino, sənə yazığım gəlir, sadəcə, yazığım gəlir. Mənim nə vecimədir sənin arvadın? Nə işimə qalıb? Özümdən söz çıxartmamışam, bunu mənə Anyeze deyib. Anyeze o kişinin adını da bilir...

- Nədir onun adı?

- Sən get bunu Anyezedən soruş!

İndi artıq Filomenanın mənə xəyanət etdiyinə şübhəm yox idi: heç demə, oynaşın adı da hamıya məlum imiş! Fikirləşdim: «Yaxşı ki, çantamda ağır alətlərdən heç biri yoxdur, yoxsa qızmış beyinlə mən o yaramazı cəhənnəmə vasil edə bilərəm». Yox, bu mənim ağlıma sığışmır, heç cür sığışmır: Filomena, mənim arvadım – başqasıyla...

Özümü əlüstü yetirdim Anyezenin atasının tütün dükanına. Anyeze burda siqaret satırdı. Pulu piştaxtanın üstünə atıb dedim:

- İki qutu «Nasional».

Anyezenin vur-tut on yeddi yaşı var; üzünün çəhrayı pudrası əskik olmayan solğun bənizli, dolusifət qızdır. Saçları cod, həm də buruq-buruqdur, gözləri isə dəfnəgilas kimi qapqara. Via del Koronaridə bu qızı tanımayan yoxdur; anadangəlmə simicliyi isə hamı kimi mənə də yaxşı məlum idi, bilirdim ki, pula görə lap canından keçər.

Siqareti uzadanda ona tərəf əyilib soruşuram:

- Hə, de görüm o qoçağın adı necədir?

- Kimin adı? - təəccüblə üzümə baxır.

- Arvadımın dostcuğazını soruşuram!

Qız mənə aşkar təlaşla baxdı – yəqin, bu vaxt sifətim nifrətdən əyilibmiş.

- Bilmirəm, mən heç nə bilmirəm...

Hirsimi boğub, özümü zorla saxlayıram.

- De görüm... Onsuz da hamı bilir, bilməyən bircə mənəm.

Qız mənə diqqətlə baxıb başını buladı. İşi belə görəndə əlimi cibimə salıb səhər qazandığım min lirəni çıxartdım.

- Bura bax, əgər onun adını desən, bu minlik səninkidir.

Pulu görcək qız elə həyəcanlandı ki, sanki ona ürəyimi açıb, eşq elan etmişdim. Dodaqları səyriməyə başladı, yan-yörəyə baxıb pulu qamarladı, tez də pıçıldadı:

- Mario...

- Hardan bildin? Kim deyib bunu sənə?

- Sizin dalandar.

Hə, deməli hamısı düz imiş!

Dükandan bayıra atılıb evə tərəf götürülmədimmi?!

Biz lap yaxınlıqda oluruq, cəmisi bir neçə alaqapını keçmək lazım idi, vəssalam. Qaça-qaça təkrarlayıram: «Mario... Mario... Mario...» Təkrarladıqca da, tanıdığım Marioların hamısı bircə-bircə beynimdə fırlanır, gözümün önündən keçirdi: Mario – südsatan; Mario – meyvəsatan; Mario – xarrat; Mario – əvvəl əsgər idi, indi işsizdir; Mario – kolbasaçının oğlu; Mario, Mario, Mario... Romada Mario adında milyon adam var, via del Koronariyə, yəqin, bunun yüzü düşər.

Evimizin alaqapısına çatan kimi birbaşa dalandar arvadın hücrəyəbənzər darısqal otağına cumuram. Fede qarı kimi, bu arvad da ahıl və bığlıdır. Baxıram ki, kürənin qırağında oturub salatları qarışdırır. Salam-kəlamsız birbaşa mətləbə keçirəm:

- Deyin görüm siz uydurmusunuz ki, mən olmayanda Filomena evdə hansısa Marionu qəbul edir?

Arvadın cavabı çox əsəbi oldu, həm də gözlənilməz:

- Heç kim heç nə uydurmayıb! Bunu mənə sənin arvadın özü deyib.

- Filomena?!

- Hə də, Filomena...

- Nə deyib ki?!



- Deyib ki, belə-belə bir adam gəlməlidir, adı Mariodur... Əgər həmin vaxt Cino evdə olsa, oğlana çatdırın ki, yuxarı qalxmasın, Cino evdə yoxdursa, qoy qalxsın. O elə indi də ordadır, sizdədir...

- Bizdədir?

- Hə də... Bir saat qabaq gəlib.

Deməli, bu Mario nəinki mövcuddur, hətta düz bir saatdır mənim evimdə oturub. Filomena ilə mənim evimdə! Cəld pilləkənə cumdum, üçüncü mərtəbəyə qalxıb qapını döydüm. Qapını Filomena özü açdı. Həmişə sakit, arxayın görünən Filomenanın məni görcək rənginin avazıması gözümdən yayınmadı.

- Əcəb diribaşsan, - deyirəm, - elə ki ayağımı bayıra qoydum, boş durmursan, o saat Marionu dartıb evə gətirirsən.

- Necə yəni? - Filomena təəccüblənir.

- Mən hamısını bilirəm! Hamısından xəbərim var!

Qışqırıb içəri girmək istəyirəm, amma Filomena yolumu kəsib nə desə yaxşıdır:

- Di yaxşı, sənə nə fərqi var... sonra gələrsən.

Dünya başıma hərlənmədimi?!

Filomenaya yağlı bir şillə ilişdirib çığırdım:

- Deməli mənə fərqi yoxdur?! Çəkil!

Onu kənara itələyib mətbəxə cumdum.

Lənətə gəlsin bu arvad qeybətlərini, bütün övrətlər də görüm cəhənnəm olsun! Həqiqətən də Mario masanın arxasında oturmuşdu, özü də qəhvə içməyə hazırlaşmışdı. Amma bu nə xarrat Mario idi, nə meyvəsatan Mario, nə də kolbasaçının oğlu Mario. Bir sözlə, küçədə ağlıma gələn Marioların heç biri deyildi. Sadəcə, Mario idi – Filomenanın oğurluq üstündə iki il damda yatan doğmaca qardaşı! Həbsxanadan tezliklə çıxacağını bilirdim, odur ki, Filomenaya tapşırmışdım: «Bax ha, mən onu öz evimdə görməyi çox da arzulamıram... Onun barəsində heç danışmaq belə istəmirəm». Yazıq Filomena isə, fırıldaqçı da olsa, qardaşını çox istəyirdi...

Məni bu cür çılğın vəziyyətdə görən Mario cəld yerindən sıçrayır, mənsə tövşüyə-tövşüyə deyirəm:

- Salam, Mario...

- Mən bu dəqiqə gedirəm, - oğlan tələsik deyir. - Narahat olma, bu dəqiqə gedirəm. Nolub axı? Mən bəyəm cüzamlıyam?

Dəhlizdən Filomenanın hıçqırtısı eşidilir, mənsə elədiklərimin xəcalətini çəkə-çəkə Marioya deyirəm:

- Yox, getmə, heç yerə getmə... Qal bizdə... Bu gün qal bizdə... Səhər öynəsini birgə yeyərik. Eləmi, Filomena? - bu dəfə dəhlizdə dayanıb göz yaşını silən arvadıma üz tuturam. - Düzdürmü, Mario burda qalıb səhər yeməyini bizimlə yeyə bilər?

Bir sözlə, özümə əl qatıb bacardığımı elədim. Sonra yataq otağına keçib Filomenanı ora çağırdım; öpdüm və biz barışdıq.

İndi qalırdı danışanların ağzını yumub bütün bu qeybətlərə son qoymaq. Çox fikirləşib axırda Marioya dedim:

- Mənimlə emalatxanaya gedək, bəlkə sahib səninçün orda bir iş tapdı.

Razılaşıb evdən çıxdıq. Pilləkənin üstündə onu dilə tutub, bəzi şeyləri öyrətməyə başladım.

- Bilirsən, Mario, buralarda səni heç kəs tanımır, soruşan-filan olsa, sən bu illərdə Milanda işləmisən. Danışdıq?

- Danışdıq.

Pilləkənlə aşağı düşdük; dalandar arvadın yanından keçəndə Marionun qoluna girib, onu qadınla tanış etdim:

- Bu, Mariodur, mənim qaynım. Milandan gəlib, indən belə bizdə yaşayacaq.

- Lap yaxşı, - dalandar arvad dedi. - Bizimçün çox xoşdur!

«Hamıdan çox mənə xoşdur, - küçəyə çıxarkən fikirləşdim. - Arvad qeybətləri mənə baha oturdu: min liranı yelə verdim, hələ üstəlik, evimdə, halal süfrəmin başında oğru da peyda oldu».

***Çevirəni: Mahir N.Qarayev***